№ 169 (4300) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

3-5 OKTYABR 2020-ci il

www.baki-xeber.com



Sәnubәr RƏSUL
Azәrbaycan Yazıçılar vә Jurnalistlәr birliklәrinin üzvü

## Azәrbaycan әsgәri, sizә arxalanmışıq!

Nә müddәtdi vәtәnin ruhu, canı dardadı,
Şuşa, Laçın, Kәlbәcәr bizsiz intizardadı.
Sizdәn özgә kimimiz-kimsәnәmiz hardadı,
Bu seçimdә demәzdim zәrrәcә aldanmışıq.
Azәrbaycan әsgәri, sizә arxalanmışıq.

Bu çәtin aşırımları üzüağ aşmalısan,
Nә qәdәr bәrә keçib, neçә dağ aşmalısan.
Düşmәni mәhv eylәyib özün sağ aşmalısan,
Cәsarәtdә, dözümdә tәkcә sizi anmışıq
Azәrbaycan әsgәri, sizә arxalanmışıq.

Vicdanı susmayanlar hәr an yanımızdadı,
Vәtәnә sәcdә etmәk, inan, canımızdadı.
Əyilmәzlik әbәdi bizim qanımızdadı,
Nә zәiflik göstәrib, nә dә xırdalanmışıq -
Azәrbaycan әsgәri, sizә arxalanmışıq.

Bu mәnim tövsiyәmdi, bizi adi sanmayın,
Hәr ocağa diz çöküb, hәr ocaqda yanmayın.
Qasırğadan, tufandan çәkinib xoflanmayın,
Qabarıb dәniz kimi artıq çalxalanmışıq,
Azәrbaycan әsgәri, sizә arxalanmışıq.

İstәmirәm әllәri yarpağıma toxuna,
Yerindә qisas alıb, cavab verin oxuna.
Bu torpağın sәrvәti göz dağıdı çoxuna,
Kimlәrinsә dilindә min yerdә hallanmışıq -
Azәrbaycan әsgәri, sizә arxalanmışıq.

Çox olubdu bu yolda işimizi әyәnlәr,
Ruhumuza toxunan, ruhumuza dәyәnlәr.
Türk qızı türk olaraq, ay mәni dinlәyәnlәr,
Müqәddәs Quran kimi әldә varaqlanmışıq -
Azәrbaycan әsgәri, sizә arxalanmışıq.

Millәtlәr arasında görünübdü boyumuz,
Min illәrdi mәlumdu bizim әsil-soyumuz.
Barmaq sayı olubdu şәnliyimiz, toyumuz,
Bu illәrin әrzindә qәmlә yaxalanmışıq...
Azәrbaycan әsgәri, sizә arxalanmışıq.

Düşmәn üstә әbәdi yerimişik fil kimi,
Bircә anda boğmuşuq Araz kimi, Nil kimi.
Durub dayanmamışıq, şikәst kimi, şil kimi,
Qovğa günü, qan günü at minib atlanmışıq -
Azәrbaycan әsgәri, sizә arxalanmışıq.

Kaş ki Mәşәdi Qasım bu günümdә yarana,
O böyük şәxsiyyәtin böyüklüyü arana.
Babamın oylaqları Ağdama, Əsgәrana
İçin-için qovrulub, için-için yanmışıq...
Azәrbaycan әsgәri, sizә arxalanmışıq.

Bir az dәrin düşünәk, dünya bizdәn danışır,
Qayalarda, daşlarda qalan izdәn danışır.
Əyilmәyәn, sınmayan, bilin dizdәn danışır,
Artıq yaxşı mәnada ürәklәrә dammışıq,
Azәrbaycan әsgәri, sizә arxalanmışıq.

Bizlәrә xor baxanlar suyumuzdan içmәsin,
Aranı dağ eylәyib yurddan-yurda köçmәsin.
Bu sayaq düşüncәlәr ağlınızdan keçmәsin -
Kiminsә arxasında qaçıb daldalanmışıq,
Azәrbaycan әsgәri, sizә arxalanmışıq.

Biz özümüz ya Nuru, ya Paşa olmalıyıq,
Bu gedәn torpaqları özümüz almalıyıq.
Tәkzib edib tarixi niyә dә danmalıyıq?
Kökündәn, gövdәsindәn, inan, baltalanmışıq -
Azәrbaycan әsgәri, sizә arxalanmışıq.

Bizlәrdәn ola bilmәz bu yolda ölmәyәnlәr,
Fikrimә şәrik çıxıb fikrimi bölmәyәnlәr.
Buna haqqımız çatır, eşitsin bilmәyәnlәr,
Biz azadlıq naminә dünyanı dolanmışıq!
Azәrbaycan әsgәri, sizә arxalanmışıq.

Tәrtәrin körpüsündә dörd dirәkli tağ durur,
Əsirlikdә nә qәdәr sәhra durur, dağ durur
Sözümün şirәsindә tәkcә Qarabağ durur,
Bu son günlәr bir azca "dodağı ballanmışıq",
Azәrbaycan әsgәri, sizә arxalanmışıq.

Mayası pak, özü pak, bil, sağlam zatımız var,
Kainatı dolanan yeriyәn atımız var.
Torpaqdan bünövrәmiz, poladdan qatımız var!
Bizi dәyişmәk olmaz, biz belә yaranmışıq!
Azәrbaycan әsgәri, sizә arxalanmışıq.

Biz qonşu borcumuzu hәmişәlik eylәdik,
Özümüzü bu yolda tamam lәlik eylәdik
Yetәr, bu qәdәr yetәr biz incәlik eylәdik,
Düz iki әsrdi ki, mәhv olub talanmışıq
Azәrbaycan әsgәri, sizә arxalanmışıq.

Ədib Sәnubәr Rәsul, üşütmәsin dar bizi
Hәmişә qorxudubdu qeyrәt bizi, ar bizi
Bu yolda döyә bilmәz boran bizi, qar bizi
Döyüş üçün hazırıq, qәlbәn yaraqlanmışıq -
Azәrbaycan әsgәri, sizә arxalanmışıq.